

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 83 (23.245)

*4 may 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirib və parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini deyib. Prezident İlham Əliyev Braziliya nümayəndə heyətinin böyük tərkibdə Azərbaycana səfərindən məmnunluğunu bildirərək iqtisadi, sərmayə qoyuluşu, turizm, mədəniyyət, kənd təsərrüfatı, aviasiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Maya, öz növbəsində, qeyd edib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığımızın inkişafında mühüm rol oynayır və parlamentlərarası əlaqələr xalqlarımızın bir-birini daha yaxşı tanımasına xidmət edir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu deyib.

Söhbət zamanı BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlığın önəmi qeyd olunub.



## Sərəncamın icrası ilə bağlı tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ilə birgə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov sərəncamın təcrübəli gənc kadrların hazırlanmasında böyük imkanlar açdığını vurğulayıb. Rektor universitetdə elmi tədqiqatların əlaqələndirilməsi bölməsinin nəzdində İnnovasiya Mərkəzinin yaradılmasından və fəaliyyətindən danışıb. Bildirib ki, mərkəz innovativ layihələrin üzə çıxarılmasında və peşəkar ekspert qrupları ilə birgə dəyərləndirilməsində yaxından iştirak edəcək.

Naxçıvan Muxtar Respublikası Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev qeyd edib ki, müvafiq sərəncamın icrası ilə əlaqədar universitetin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq, Dövlət və bələdiyyə idarəetməsi ixtisaslarında təhsil alan tələbələr nazirliyin himayəsinə verilib.

Vurğulanıb ki, sərəncamın icrası məqsədilə nazirlikdə xidməti müşavirə keçirilib, əməkdaşlardan ibarət işçi qrupu yaradılıb, müvafiq tədbirlər planı təsdiq edilib. "İdeyadan başlanğıca" layihəsi üzrə nazirlikdə "İnnovativ layihələrin təşviqi mərkəzi" yaradılıb. Ekspert qrupunun əksəriyyətinin universitetdə pedaqoji fəaliyyət göstərdiyini nəzərə alaraq bu istiqamətdə görülən işlərin gələcəkdə daha səmərəli olacağı vurğulanıb. Nazir diqqətə çatdırıb ki, əsas məqsəd nazirliyin fəaliyyət istiqamətlərinə uyğun gördüyü işlərə tələbələrin cəlb edilməsi və yeni layihələrin üzə çıxarılmasıdır.

Nazirliyin Qeydiyyat və notariat şöbəsinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti bölməsinin baş məsləhətçisi, Naxçıvan Dövlət Universitetinin Hüquq kafedrasının müəllimi Reyhan Sadiqova, Təşkilat-nəzarət şöbəsinin rəisi, ədliyyə müşaviri, ekspert qrupunun rəhbəri Səttar Zamanov çıxışlarında layihələrin qiymətləndirilməsi və tətbiqində tələbələrə yaxından dəstək olacaqlarını bildiriblər.

Qeyd edək ki, tələbələr nazirliyin Aparatında, Penitensiar Xidmətdə, Məhkəmə Ekspertizası Mərkəzində, Naxçıvan Bələdiyyəsində ikigünlük təcrübədə olublar.

**Səadət ƏLİYEVA**

* * *

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri ilə görüş keçirilib.



Tədbiri giriş sözü ilə cəmiyyətin direktoru Mahir Əliyev açaraq bildirib ki, müvafiq sərəncamın icrası ilə əlaqədar "İdeyadan başlanğıca" devizi altında hazırlanan yeni layihələrin (startapların) həyata keçirilməsi üçün ekspert qrupu yaradılıb. Ekspert qrupu tərəfindən ictimai əsaslarla fəaliyyət göstərən mərkəzlərin qurulması, layihələrin qəbulu və təqdimatının keçirilməsi istiqamətində bütün zəruri tədbirlər görülür.

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov çıxışında qeyd edib ki, universitetin Nəqliyyat və informasiya texnologiyaları kafedrasında təhsilin keyfiyyətinin daha da artırılması üçün dəmiryol nəqliyyatındakı iş proseslərini özündə əks etdirən müasirtipli laboratoriya yaradılıb. Bu da tələbələrdə dəmiryol işinə həvəsi daha da artırır. Bundan əlavə, tədris proqramına uyğun olaraq universitetin 3-cü və 4-cü kurs tələbələri dəmiryol müəssisələrinə istehsalat təcrübəsinə gəlirlər.

Sonra Naxçıvan Dövlət Texniki Kollecinin direktor müavini Tural Məmmədovun, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin müəllimi Yadulla Həziyevin və Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi Polad Hüseynovun çıxışları dinlənilib.

Sonda tələbələr "Naxçıvan Dəmir Yolları" MMC-nin fəaliyyəti ilə tanış olublar.

**✍ Pərviz HACILI**

## Nəzəri biliklər istehsalat təcrübəsi ilə təkmilləşdirilir

Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisasları üzrə III kurs tələbələrinin 15 aprel 2019-cu il tarixdən 31 may 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən mehmanxanalarda, muzeylərdə və turoperatorlarda istehsalat təcrübəsi keçmələri təmin edilir. Tələbələr müəyyən edilmiş qrafikə uyğun olaraq mayın 3-dən Gəmiqaya Turizm Agentliyində turoperatorun iş prosesi ilə yaxından tanış olublar. Burada tələbələrə turizm məhsulunun formalaşdırılması, işlənib hazırlanması, hərəkətə gətirilməsi və satışının təşkili haqqında ətraflı məlumat verilib. Həmçinin turoperatorların iş funksiyası, müştərilərin turlara olan tələbatlarının öyrənilməsi, xidmət proqramlarının hazırlanması, turoperatorların xidmət təminatçıları olan yerləşdirmə, qidalanma obyektləri, ayrı-ayrı nəqliyyat sahibləri ilə etdiyi əməkdaşlıq və bu sahədə bağlanmış müqavilələr haqqında da danışılıb. Turoperatorlar tərəfindən vətəndaşların xarici ölkələrə göndərilməsi və həmin ölkələrdə onların turizm xidmətləri ilə təmin edilməsi, həmçinin xarici turistlərin ölkəmizdə qəbulu və onlara turizm xidmətlərinin göstərilməsi, eləcə də muxtar respublika ərazisində daxili turizm xidmətlərinin təşkili haqqında tələbələrə ətraflı məlumat verilib.

Təcrübənin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Təbriz Tibb Elmləri Universiteti ilə birgə beynəlxalq konfrans olub



***Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında İran İslam Respublikası Şərqi Azərbaycan Vilayətinin Təbriz Tibb Elmləri Universiteti ilə birgə beynəlxalq konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov İran İslam Respublikası ilə qarşılıqlı əlaqələrin hazırda bütün sahələrdə, o cümlədən səhiyyə sistemində uğurla inkişaf etdiyini bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın bütövlükdə hər iki ölkə əhalisinin sağlamlığının qorunmasına xidmət etdiyini vurğulayan nazir birgə əməkdaşlığa uyğun olaraq ötən il muxtar respublikanın bir qrup həkiminin Qərbi Azərbaycan Vilayətinin Urmiya şəhərinə, urmiyalı həkimlərin, o cümlədən Təbriz Tibb Elmləri Universitetinin rektoru Məhəmmədhüseyn Sominin bu il Naxçıvana səfərlər etdiyini xatırladıb. Bildirib ki, praktik həkimlərin bilik və bacarığının yüksəldilməsində, bu sahədə təhsil alan tələbələrin nəzəri və təcrübi biliklərinin artırılmasında keçirilən elmi-praktik konfranslar mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, Səhiyyə Nazirliyi hamiliyə götürdüyü Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi tələbələrinin praktik təcrübələrinin xəstəxanalarda keçirilməsinə, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olur. Nəticədə, tələbələr "İdeyadan başlanğıca" devizi altında azad sahibkarlığın prinsiplərini öyrənir, öz ideyalarını təcrübədə tətbiq edir və qazandıqları bilikləri digərləri ilə bölüşürlər. Bu isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrasına xidmət edir.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin yüksək intellektual səviyyəyə çatdırılması və praktik iş qabiliyyətinə yiyələnmələri daim diqqətdə saxlanılır. Keçirilən tədbirlər kadr hazırlığına müasir yanaşmanı və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin etmək məqsədi daşıyır.

Rektor universitet tələbələrinin müxtəlif ixtisaslar üzrə nəzəri bilik və bacarıqlarının artırılması üçün yaradılmış beynəlxalq elmi əlaqələrin mühüm əhəmiyyətini qeyd edib.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış edərək dost və qonşu ölkələr olan İran ilə Azərbaycan arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib. İran İslam Respublikasının Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə səhiyyə sistemindəki əlaqələrinin genişləndirilməsini səmərəli əməkdaşlığın nəticəsi kimi dəyərləndirib.

Tədbirdə Təbriz Tibb Elmləri Universitetinin rektoru Məhəmmədhüseyn Sominin, Cavad Cəlilinin, Əli Tağızadənin tibb elminin aktual mövzularına həsr olunmuş elmi məruzələri dinlənilib. Məruzələr slaydlarla müşayiət olunub, yüksəkixtisaslı mütəxəssislər çalışdıqları sahədə toplanmış təcrübəni bölüşüb və dinləyiciləri maraqlandıran sualları cavablandırıblar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli: "İbrahim Səfi yaradıcılığının Azərbaycan ictimaiyyətinə təqdim edilməsi təqdirəlayiq addımdır"



*Bakıda görkəmli fırça ustası İbrahim Səfinin yaradıcılığına həsr edilmiş elmi-praktik konfrans keçiriləcəyini eşitdiyimdə, sözün düzü, həyəcanlandım. Bu günlərdə qiyabi təhsilimlə əlaqədar paytaxt şəhərimizdə olduğum üçün bu konfransda iştirak etməyi özümə borc bildim. Naxçıvandan kənarda diyarımıza məxsus hər hansısa bir xoşagəlim hadisə insanın qəlbini fərəh və qürur hissi ilə bürüyür. Naxçıvan rəssamlıq məktəbini ölkə hüdudlarından kənarda tanıdan İbrahim Səfi də bizə fəxarət hissləri bəxş edən görkəmli şəxsiyyətlərimizdən biridir. Odur ki, 120 illik yubileyi qeyd olunan görkəmli fırça ustasının zəngin irsinin təbliği məqsədi daşıyan bu konfransda iştirak etmək üçün paytaxtdakı Atatürk Mərkəzinə üz tutdum. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi, Oxu Akademiyası və Azərbaycanda Atatürk Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən elmi-praktik konfransda ölkəmizin tanınmış elm və incəsənət nümayəndələri iştirak edirdi.*

Konfrans iştirakçıları ilə birlikdə görkəmli rəssamın əsərlərindən ibarət sərgiyə baxdıq. 15-dən çox əsərin nümayiş etdirildiyi sərgidə məxsusi bir gözəllik aurası var idi. Bu əsərlərə baxdıqca düşünürsən ki, həyatın, təbiətin, insanların gözəlliyini tərənnüm edən rəssam qarşısına qoyduğu məqsədə nail olmaq üçün sənətinin ən təsirli ifadə vasitələrindən istifadə edib. Eyni zamanda fransız impressionistlərinin mütərəqqi cəhətlərinə də biganə qalmayıb. "Mənim sənət anlayışım rəssamlıqda gözəllik axtarmaq və gözəllik yaratmaqdan ibarətdir, mən gözəlliyi bəyənirəmsə, başqasına da bunu bəyəndirməyə çalışıram", – deyən rəssamın, həqiqətən, bunu ustalıqla bacardığının şahidi olursan. Yaratdığı əsərlərin ruhu, rəng koloriti, dinamizmi tamaşaçıya təsirsiz ötüşmür. Bəlkə də, buna görədir ki, sənətşünas Süleyman Arisoyun da yazdığı kimi: "İbrahim Səfinin əsərlərini seyr edənlər lirik və ya romantik hisslərə qapılır, həyəcan keçirirlər...". Və bütün bu nümayiş etdirilən əsərlərə baxdıqca, tədbirdə də səsləndirilən "Bu gün Türkiyənin ən görkəmli şəxsiyyətlərində və kolleksiyonerlərində İbrahim Səfinin əsərinin olması prestij sayılmaqdadır" fikrinin bir daha əbəs yerə deyilmədiyinin şahidi oluram.





Sərgidə bir daha əmin oldum ki, həqiqətən, İbrahim Səfi özündən sonraya zəngin və dəyərli bir irs qoyub gedib. Bu irsin təəssüratları da zəngin oldu. Elə bunun nəticəsidir ki, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli İbrahim Səfinin yaradıcılığının Azərbaycan ictimaiyyətinə təqdim edilməsini təqdirəlayiq addım kimi qiymətləndirdi.

Akademiklə söhbətimiz zamanı qeyd etdi ki, qədim Naxçıvan hər zaman özünün ölkəmizə və dünyaya bəxş etdiyi görkəmli şəxsiyyətləri ilə sayılıb-seçilib. Mədəniyyətdən incəsənətə, ədəbiyyatdan tarixə, təbabətdən hərb elminədək öz sözünü demiş həmyerlilərimiz təkcə ölkəmizdə deyil, onun hüdudlarından da çox-çox uzaqlarda tanınıblar. Anadan olmasının 120 illik yubileyi geniş şəkildə qeyd olunan görkəmli rəssam İbrahim Səfi də məhz yaradıcılığı ilə bütün Türk dünyasını fəth edən, yaratdığı əsərlərlə təkcə Türkiyədə deyil, Avropanın bir çox ölkələrində sənətinə böyük maraq oyadan incəsənət ustadlarımızdandır.

Qəlbində hər zaman Vətən sevgisini daşıyan, bu sevgini məhəbbətlə sənət əsərinə çevirən böyük ustadın həyat və yaradıcılığına yenidən işıq salan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Sərəncamı isə, sözün həqiqi mənasında, bu böyük şəxsiyyətin sənət dünyasına verilən ən böyük dəyərdir. Sərəncamın icrası istiqamətində bu günədək müxtəlif tədbirlər keçirilib, rəssamın əsərlərindən ibarət sərgisi təşkil olunub. Növbəti belə tədbir də böyük fəxarət hissi ilə qatıldığımız bugünkü konfrans və sərgi oldu.

İsa Həbibbəyli tədbirin Atatürk Mərkəzində keçirilməsinin də təsadüfi olmadığını vurğuladı. Çünki İbrahim Səfi həyatının böyük bir hissəsini Türkiyədə yaşayıb-yaradıb. Elə sərgidə ən çox diqqətimizi çəkən Atatürkün portretini yada salmaq yerinə düşər. İbrahim Səfi Atatürkün portretini naturadan işləyən ilk rəssam olub. Bu mənada, Atatürk Mərkəzində keçirilən tədbir həm də rəmzi xarakter daşıyır.

Akademik İsa Həbibbəyli İbrahim Səfinin Türkiyədə təsviri sənəti Avropa rəssamlığı səviyyəsinə qaldıran görkəmli rəssam kimi xidmətlərini yüksək qiymətləndirdi və onu türk rəssamlıq sənətində impressionizm cərəyanının əsas yaradıcılarından biri adlandırdı. Akademik həm də İbrahim Səfinin Naxçıvanda – Şərurda köklü nəsillərdən birinin nümayəndəsi olduğunu bildirdi. Məlum oldu ki, Şərurda yaşayıb fəaliyyət göstərmiş Səfibəyovlardan Sovet hakimiyyətinə qədər Cəlil bəy Səfiyev Moskva Universitetinin Hüquq, Hüseynqulu bəy Səfiyev Tibb fakültələrini bitirmişlər. Tağı bəy Səfiyev isə Cəlilkənd məktəbində Cəlil Məmmədquluzadənin şagirdi olmuş, İrəvan Müəllimlər Seminariyasını bitirərək Nehrəm kəndində Mirzə Cəlillə birlikdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Azərbaycan Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərovla söhbətimiz zamanı doğma Naxçıvanımızla və onun tarix boyunca yetirdiyi görkəmli şəxsiyyətləri ilə bir daha öyündüm. Akademik xüsusi olaraq bildirdi ki, Naxçıvan hər zaman böyük şəxsiyyətləri ilə tanınıb. İbrahim Səfi isə həm Azərbaycan, həm də Türkiyə üçün böyük sənətkarlardandır. Onun yüzlərlə əsəri bu gün də Türkiyədə və digər Avropa ölkələrində şəxsi kolleksiyalarda saxlanılır. Nizami Cəfərov onu da qeyd etdi ki, Atatürkün dünyanın tanınmış rəssamları tərəfindən çəkilmiş çoxlu rəsmləri var, ancaq İbrahim Səfinin çəkdiyi əsər bizim üçün doğmadır. Hesab edirəm ki, biz İbrahim Səfi kimi sənətin zirvəsini fəth etmiş bir şəxsiyyəti ictimaiyyətə daha yaxından tanıtmalıyıq.

İndiyədək bir çox sənətkarların yaradıcılığını tədqiq edən sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin fikirləri də çox maraqlıdır. Çünki sənəti və sənətkarı sənətşünasın fikirlərindən öyrənmək onun yaradıcılığına daha dərindən bələd olmaq üçün bir fürsət idi. Bu fürsəti əldən verməmək üçün sənətşünas-alimə yaxınlaşıb, qəzetimiz üçün müsahibə verməsini xahiş etdim. O, söhbətə belə başladı: – İbrahim Səfi taleyin amansız hökmü ilə Vətəndən uzaqda ömür sürməyə məcbur olmuş məşhur rəssamlarımızdandır. Müstəqillik illərində mətbuatda bu rəssam haqqında bəzi yazılar çap edilsə də, geniş ictimaiyyət onun varlığından xəbərsiz olub. Sevindirici haldır ki, bu gün İbrahim Səfiyev haqqında tədqiqatlar aparılır, 120 illik yubileyi geniş şəkildə qeyd olunur. Yeri gəlmişkən bugünkü tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə rəssamın əsərlərindən ibarət sərginin keçirilməsi də görkəmli sənətkarın özünəməxsus irsinin təqdimatı və təbliği baxımından olduqca təqdirəlayiqdir.

Sənətşünas bildirdi ki, İbrahim Səfinin irsi çox zəngindir. O, rəngkarlığın ən müxtəlif janrlarında əsərlər işləyib. Azərbaycan, rus və dünya boyakarlığının bədii ənənələrinə yaxından bələd olduğunu rəssamın əsərlərindən də aydın duymaq mümkündür. Çəkdiyi tablolarda təbiətdəki gözəllik qaynaqlarını üzə çıxarmaq, görünənləri incə bədii tutumda təqdim etmək istəyi qabarıq duyulmaqdadır. Bununla bərabər, rəssamın portret janrında işlədiyi əsərlərdə insan psixologiyasına dərindən bələdliyi də hiss olunur. Unudulmaz rəssamla bağlı çox şey demək olar. Ancaq onu qeyd etmək istərdim ki, İbrahim Səfi, həqiqətən, böyük sənətkardır və onun yaradıcılığı ilə bağlı elmi konfransın keçirilməsi də ölkəmiz üçün məxsusi əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, İbrahim Səfi irsinin tədqiqatçısı Ülviyyə Həmzəyeva bizimlə söhbətində bu gün ölkəmizdə milli mədəniyyətimizə, incəsənətimizə böyük qayğı göstərilməsinə diqqət çəkdi. Ali Məclis Sədrinin məlum sərəncamını İbrahim Səfi yaradıcılığına göstərilən ən böyük dəyər kimi qiymətləndirən müsahibimiz dedi ki, türk rəssamlığına yeni bir meyil gətirən, sənətdə öz prinsipləri, mükəmməl işləmə tərzi olan rəssamın yaradıcılığı çoxşaxəlidir. Bundan irəli gəlir ki, İbrahim Səfinin 10 mindən artıq əsəri var və Türkiyədə ən çox əsəri olan və satılan rəssam kimi tanınır. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən rəssamın əsərlərinin 53 reproduksiyasının Bəhruz Kəngərli adına Sərgi Salonunda nümayiş olunmasını diqqətə çatdıran Ülviyyə xanım sərəncamın icrası istiqamətində görülən işlərin davamı olaraq Ali Məclis Sədrinin himayəsi və qayğısı ilə bu yaxınlarda albom-kataloqun nəşr olunacağı xəbərini də verdi.

Konfransda İbrahim Səfi irsi haqqında maraqlı çıxışı ilə diqqətimi cəlb edən Xalq rəssamı Ağəli İbrahimovun fikirlərini də öyrəndim. O, İbrahim Səfinin rəssamlıqda öz dəst-xəttini yaratmış ustadlarımızdan olduğunu bildirərək dedi ki, bu gün keçirilən elmi konfransda onun yaradıcılığı haqqında çox yüksək fikirlər söylənildi. Mən isə əlavə olaraq onu qeyd edim ki, İbrahim Səfinin yaradıcılığı çox geniş və məzmunludur. O, dünya rəssamlığında özünü təsdiq etmiş bir şəxsiyyətdir. Bizim üzərimizə düşən vəzifə ondan ibarətdir ki, İbrahim Səfinin yaradıcılığını dərindən öyrənək, onu gənc nəslə, xüsusilə gənc rəssamlarımıza yaxından tanıdaq.



Yeri gəlmişkən bir məqamı da nəzərə çatdırım ki, tədbirdə çıxış edən Oxu Akademiyasının rəhbəri Səməd Vəkilov İbrahim Səfi haqqında sənədli film çəkəcəkləri ilə bağlı məlumat verdi.

İbrahim Səfinin ailəsi adından tədbirdə iştirak edən qardaşı nəvəsi Elşad Səfiyev isə fikirlərini belə ifadə etdi: – Hər şeydən əvvəl bildirmək istəyirəm ki, İbrahim Səfiyevlə bağlı belə bir əhatəli elmi-praktik konfransın keçirilməsi bizim üçün qürurverici hadisədir. Bildiyiniz kimi, babamın qardaşı İbrahim Səfiyevin həyatı, demək olar ki, Türkiyə ilə bağlı olub. O, burada təhsil alıb, işləyib, fəaliyyət göstərib. Zəngin yaradıcılığına göstərilən böyük marağın nəticəsidir ki, Türkiyədə əsərləri geniş tamaşaçı auditoriyası qazanıb, çoxsaylı fərdi sərgiləri təşkil olunub. Ancaq bütün bunlara baxmayaraq, hər zaman qəlbi Vətən eşqi ilə döyünüb, doğulduğu Naxçıvan torpağının xiffətini çəkib. Şükürlər olsun ki, bu gün ölkəmiz öz müstəqilliyini bərpa edib, Azərbaycandan kənarda yaşayıb fəaliyyət göstərən tanınmış insanlarla bağlı tədqiqatlar aparmaq, onlar haqqında məlumatlar almaq imkanları əlçatan olub. Mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova da ailəmiz adından dərin minnətdarlığımı bildirirəm ki, görkəmli rəssamın 120 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb. Bu onu göstərir ki, Vətən üçün çalışanlar, yaşadığı ölkəni təbliğ edənlər heç zaman unudulmurlar. Əlavə olaraq Atatürk Mərkəzində keçirilən tədbirin təşkilatçılarına da minnətdarlığımı bildirirəm.

Bir sözlə, Azərbaycan Atatürk Mərkəzində keçirilən elmi-praktik konfrans bir çox əhəmiyyətli tərəfləri ilə yadda qaldı. İbrahim Səfinin həyatı, rəngarəng və zəngin yaradıcılıq yolu çıxışlarda geniş şəkildə öz əksini tapdı. Çıxış edənlər rəssamın yaradıcılığının ictimaiyyət tərəfindən geniş şəkildə tanıdılmasının zəruriliyini vurğuladılar. Nəzərə çatdırıldı ki, rəssamın yaradıcılığının öyrənilməsinə və təbliğ olunmasına böyük tələbat var. Eyni zamanda İbrahim Səfi Türkiyə və Azərbaycanın ortaq dəyəridir. Ümid edirik ki, Türk dünyasının böyük rəssamının yaradıcılığı ilə yaxından tanışlıq gənc rəssamlarımızın da inkişafına öz töhfəsini verəcək, onları yeni-yeni uğurlara səsləyəcəkdir.

**Gülcamal TAHİROVA**
*Naxçıvan-Bakı*

## Tibbi xidmətlərdə 20 faiz güzəşt ediləcək



Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi publik hüquqi şəxsində göstəriləcək tibbi xidmətə bayram güzəştləri ediləcək.

May ayının 1-dən start verilən bu tədbir ayın sonunadək davam edəcək. Ay ərzində sakinlərə göstəriləcək tibbi xidmətlərə 20 faiz həcmində güzəştlər olunacaq.

Bu müddətdə vətəndaşlar mərkəzdə həyata keçirilən tibbi xidmətin ambulator, laborator müayinələrindən yararlana bilərlər. Pasiyentlərə ay ərzində stasionar müayinə-müalicə təminatı da verilir. Onlar, həmçinin cərrahi xidmətlərlə əhatə ediləcək və həkim məsləhəti alacaqlar.

Vətəndaşlar Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi publik hüquqi şəxsində yaradılmış bu imkanlardan istifadə nəticəsində sağlamlıqlarının etibarlı şəkildə qorunmasına xidmət edə bilərlər.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

# "Naxçıvanda mətbuat tarixi" kitabının təqdimatı olub




***Mayın 3-də filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyidin Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyinə həsr etdiyi, Almaniyanın Lambert Akademik Nəşriyyat Evində ingilis dilində nəşr olunan "Naxçıvanda mətbuat tarixi" kitabının təqdimatı keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək demişdir ki, son illər muxtar respublikada bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mətbuat orqanlarına, teleradiolara göstərdiyi hərtərəfli qayğı keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Görülən işlər sırasında Naxçıvan mətbuatının tarixi ilə bağlı aparılan araşdırmalar xüsusi yer tutur. Filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyidin Almaniyada ingilis dilində nəşr olunmuş "Naxçıvanda mətbuat tarixi" kitabı, bu mənada, mühüm dəyərə malikdir.

Qeyd edilmişdir ki, muxtar respublikanın 95 illik yubileyi münasibətilə nəşr olunmuş və 3 may – Beynəlxalq Mətbuat və Söz Azadlığı Günündə təqdimatı keçirilən "Naxçıvanda mətbuat tarixi" kitabında XX əsrin əvvəllərində Naxçıvanda mətbuatın yaranma tarixi, keçdiyi yol, bugünkü inkişaf səviyyəsi geniş işıqlandırılır. Eyni zamanda müstəqillik illərində Naxçıvanda mətbuata göstərilən dövlət qayğısı, güclü maddi-texniki bazanın yaradılması, qanunvericilik bazasının formalaşdırılması ətraflı təhlil olunur. Kitab nəşrə hazırlanarkən müəllif geniş tədqiqat işləri aparmış, 150 müxtəlif ədəbiyyatdan, arxiv materialları və internet saytlarından istifadə etmişdir. Kitab təkcə Naxçıvan mətbuatının deyil, həm də, ümumilikdə, muxtar respublika ədəbi-ictimai fikrinin və elmi mühitinin salnaməsi kimi böyük




oxucu marağı cəlb edir.

Ülvi Hüseynli bildirmişdir ki, dünyanın 40-dan çox ölkəsində çap məhsullarının yayımını həyata keçirən Lambert Akademik Nəşriyyat Evində ingilis dilində çap olunan kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulur. Yeni nəşr kitabların, elmi tədqiqatların alman, ingilis, türk, ərəb və rus dillərində onlayn və çap şəklində yayımını həyata keçirən nəşriyyat vasitəsilə bir çox beynəlxalq kataloqlara daxil edilmiş, Amerika və Avropanın onlayn kitab satışı saytlarında yerləşdirilmişdir. Bu mənada, kitab Naxçıvanla bağlı həqiqətlərin beynəlxalq aləmə çıxışının təmin edilməsi sahəsində də mühüm addımdır.

Tədbirdə Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, "Şərq qapısı" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultanova, Naxçıvan Dövlət Universitetinin Jurnalistika və kitabxanaçılıq kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva çıxış edərək yeni nəşri mətbuat tarixini Azərbaycançılıq ideologiyası əsasında öyrənən əsər kimi dəyərləndirmiş, Naxçıvan mətbuat tarixinin araşdırıcıları üçün qiymətli elmi mənbə olduğunu vurğulamışlar.

Təqdimat mərasimində "Şərq qapısı" qəzetinin baş redaktor müavini Rauf Kəngərli, "Arazın səsi" qəzetinin redaktoru Hüseyn Şəkərəliyev, filologiya üzrə fəlsəfə doktoru, şair Elxan Yurdoğlu, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Qahirə Hüseynova, Jurnalistika və kitabxanaçılıq kafedrasının dosenti Xumar Məmmədova çıxış edərək kitabın Almaniyada nəşrini Naxçıvanda söz və mətbuat azadlığına yaradılan şəraitin beynəlxalq arenada təqdimi baxımından əhəmiyyətini qeyd etmiş, müəllifə təbriklərini çatdırmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid Naxçıvanda mətbuatın yaranma tarixi, müstəqillik illərində muxtar respublikada medianın inkişafına göstərilən hərtərəfli dövlət qayğısından danışmış, aparılan məqsədyönlü siyasətin dövlət və KİV münasibətlərinin formalaşmasındakı rolundan, mətbuat tarixinin öyrənilməsi sahəsində əldə olunan uğurlardan bəhs etmişdir. Müəllif mətbuat tariximizin tədqiqi və təbliğinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

**"Şərq qapısı"**

# Hər ilməsində bir ürək döyüntüsü, hər naxışında min düşüncə izi yaşadan xalçaçılıq sənəti




*Kökü adi toxuculuğa əsaslanan Naxçıvan xalçaçılıq sənəti uzun bir təkamül yolu keçib. Aparılan arxeoloji tədqiqatlar zamanı Neolit dövrünə aid bitki xammalından sadə hörmə metodu ilə müxtəlif əşyaların hazırlanması üçün işlədilən alətlər, Tunc dövrünə aid aşkar edilən yun xalçalar bu sənətin yurdumuzda qədim tarixə malik olduğundan xəbər verir. Arxeoloji tədqiqatlar zamanı Naxçıvandakı qədim qəbirlərdən aşkar edilmiş kişi meyidinin əynindəki qırmızı və qara rənglərlə boyanmış geyim isə bu dövrdə yerli toxucuların həm də parçaları boyamaq üsullarını mənimsədiklərini təsdiqləyir. Buradakı boyaq maddələrinin çox qədim vaxtlardan mövcudluğunu Herodotun Qafqazda parçaları boyamaq adəti haqqında verdiyi məlumatlar da sübut edir.*

Bununla bağlı həmsöhbət olduğum "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının direktoru Səriyyə Hüseynova Naxçıvanda xalçaçılığın keçdiyi inkişaf yolundan, bu sahəyə göstərilən dövlət qayğısından danışdı. Onun dediklərindən: – Xalqımızın qədim sənətkarlıq nümunəsi olan xalçaçılıq sənəti bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. İnsanlar tərəfindən min illər boyu formalaşan, cilalanaraq bu günümüzə qədər gəlib çatan bu sənət qədim diyarımızda indi də sevilərək yaşadılır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixli "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" Naxçıvanda xalçaçılığın yeni mərhələyə qədəm qoymasını şərtləndirib. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin filiallarından biri olan xalça istehsalı emalatxanasının binası, ümumilikdə, 8 min 500 kvadratmetr ərazini əhatə edir. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Hazırda filialda 80-ə yaxın toxucu çalışır. Bina toxuculuq emalatxanası, inzibati otaq, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunur. Müsahibim dedi ki, burada Azərbaycan xalçalarının Naxçıvan qrupuna daxil olan xalçaların toxunmasına üstünlük verilir. Burada işləyən toxucular "Azərxalça"nın təşkil etdiyi tədris-hazırlıq kurslarında bu sənətin sirlərinə yiyələniblər. Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Həmçinin Naxçıvan xalçalarının bu diyarın keyfiyyətli yunundan toxunması üçün muxtar respublika ərazisinin flora ehtiyatları, zəngin təbii boyaq bitkiləri nəzərə alınaraq, burada regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi də yaradılır. Bu, gələcəkdə xalçaçılıq üçün lazım olan xammalı öz hesabımıza ödəməyimizə imkan verəcək.

Emalatxanada olarkən buradakı xalçaçılıq sənətini yaşadan xanımlarımızla da söhbət etmək imkanı qazandıq. Onlarla xalçaçılıq ənənələri haqqında danışarkən ulu nənələrimizdən bizə miras qalan bu sənətə bu gün də böyük maraq göstərildiyinin bir daha şahidi olduq.



İlk görüşüb söhbət etdiyimiz xanım Babək rayonunun Qahab kəndindən olan toxucu Raziyə Adıgözəlovadır. 2013-cü ildən xalçaçılıqla məşğul olan Raziyə xanım deyir ki, bizim kənddə xalçaya həmişə böyük sevgi, ehtiram olub. Əvvəllər hər kəsin evinin divarında xalça olar, üzərindən isə saz, xəncər, qəmə, tüfəng asılardı. Xalçaların bədii-estetik görünüşü, oradakı naxışlar, təsvirlər valeh edərdi hər insanı. Nənələrimizin, analarımızın toxuduqları həmin xalçaların naxışlarında min sirli-sehirli aləm gizlənərdi. Hər kəs öz ovqatını, daxili aləmini xalçalara həkk edərdi...

Raziyə xanımın sözlərinə görə, hələ uşaqkən nənəsinin, anasının xalça toxuması onda bu sənətə maraq yaradıb. Onlardan çox şey öyrənib. 2013-cü ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində və bu il "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin təşkil etdiyi kursda təhsil alıb. Həmçinin xalçaçılıqla məşğul olan qadınlar üçün təşkil edilmiş sosial layihədə iştirak edib. Bu günədək 6 xalça toxuyub. Əvvəllər bu işi öz evində görür, Naxçıvan Şəhər Məşğulluq İdarəsinə təhvil verir, qarşılığında isə məvacib alırmış. Xalçanın toxunmasında sərf olunan bütün ləvazimatlar isə məşğulluq idarəsi tərəfindən ödənişsiz verilirmiş. Emalatxanada işləməksə, daha əlverişlidir, çünki burada onlarla təcrübəli qadın çalışır, bilmədiklərini bir-birlərindən öyrənirlər.

Həmsöhbət olduğumuz digər xalçaçı qadın isə Vayxır kənd sakini Günel İsmayılovadır. O deyir ki, xalçaçılıq maraqlı sənət olduğu qədər, səbir, diqqət və dözümlülük də tələb edir. Ona görə də bu sənətə sevərək, həvəslə məşğul olmaq lazımdır. Günel xanımın sözlərinə görə, o da xalçaçılıq sənətinin incəliklərini öyrənmək məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində bu peşə üzrə kursda təhsil alıb, qadınlar üçün təşkil olunan sosial layihədə iştirak edib. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin təşkil etdiyi kursda öz bacarığını da təkmilləşdirib. O deyir ki, bu günə qədər 4 xalça toxuyub və bunun üçün lazım olan bütün ləvazimatlar ona ödənişsiz verilib. Xanımın hazırda toxuduğu xalça diqqətimizi çəkir. Bildirir ki, bu xalça Naxçıvan qrupuna aid olan dəvə karvanı naxışını özündə əks etdirir.

Həmsöhbət olduğumuz digər bir xalçaçı qadın Şahbuz rayon, Sələsüz kənd sakini Natəvan Zeyniyevadır. O, uzun illərdir ki, xalçaçılıqla məşğuldur. Natəvan xanım da layihədə iştirak edən qadınlarımızdandır. Deyir ki, mən nənəmin, anamın həvəslə toxuduğu xalçalara baxa-baxa böyümüşəm. Həmişə evimizdə xalça toxunduğuna görə bu, mənə bir əyləncə kimi gəlib. İllər keçdikcə ilmələrə, saplara, naxışlara baxa-baxa bir də görmüşəm ki, xalçaçılığın sirrini, sehrini özündə saxlayan ilmələrə, saplara vurğunam. Xalçanın gözəlliyi onun naxışından və rənglərin düzgün seçilməsindən asılıdır. Rəng düzgün seçiləndə, naxışlar düz toxunanda barmaqların sehri ilə bir sənət əsəri yaratmaq olur. Yanlış vurulan naxışı usta seçər, naşı seçə bilməz. Mən də həmişə çalışmışam, yanlış naxış vurmayım ki, usta xalçaçılar məni qınamasınlar.

Müsahibimiz deyir ki, bu gün ürək hərarəti, əl əməyi, göz nuru ilə toxuduğum xalçalar yüksək qiymətləndirilir. Muxtar respublikada təşkil olunan sosial layihədə mən də iştirak edirəm. İndiyə kimi 4 xalça toxumuşam. Toxuduğum xalçalar müxtəlif sərgilərdə nümayiş olunub.

Xalçaçı xanım emalatxanada onlar üçün yaradılan şəraitdən də söhbət açdı. Dedi ki, burada yaradılmış şərait yüksək səviyyədədir, işçilərin işə gedib-gəlməsi üçün avtomobil ayrılıb. Yaxşı da əməkhaqqı alırıq.

Biz bu yazımıza emalatxanada işləyən yalnız üç toxucunun fikirlərini sığdıra bildik. Ancaq onu da qeyd etməliyik ki, bu gün muxtar respublikanın bütün bölgələrində xalçaçılıqla məşğul olan yüzlərlə belə qadınlarımız var. Bunun üçün dövlətimiz tərəfindən hərtərəfli şərait yaradılıb. Bu işlə məşğul olmaq bir tərəfdən ulularımızdan bizə gəlib çatan gözəl bir sənəti yaşatmaq və gələcək nəsillərə ərməğan etməkdirsə, digər tərəfdən evdar qadınlarımızın məşğulluğunun elə öz evindəcə təmin edilməsidir.

Xalça incəsənətin zəngin xəzinəsi, xalqın yazılı tarixi, şifahi ədəbiyyatı, musiqisi, estetik mədəniyyətinin və klassik görüşünün əsas mənbəyidir. Elə bu səbəbdən də Naxçıvanda həmin sənəti qoruyub yaşatmaq məqsədilə bir sıra layihələr həyata keçirilir, rayon və kəndlərimizdə xalça sexləri fəaliyyət göstərir. Xalçaçılığın inkişafı məqsədilə kurslar təşkil olunur. Yeni bina ilə təmin olunmuş Naxçıvan Dövlət Xalça Muzeyi isə zəngin eksponatları ilə qonaqların ixtiyarına verilib. Bütün bunlar zəngin mənəvi irsimizin yaşadılması, onların qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün atılan mühüm addımlardır.

**G.TAHİROVA**

# On bir ayın sultanı – Ramazan



*Milli və dini dəyərlərimizin qorunması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn görkəmli dövlət xadiminin xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi-memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi ulu öndərin bir daha islami dəyərlərə diqqətini göstərən parlaq misallardır. Artıq multikultural bir ölkə kimi tanınan Azərbaycanda hər bir dindara dini ayinləri icra etməyə hərtərəfli şərait yaradılıb.*

Bu gün ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt muxtar respublikamızda uğurla davam etdirilir. Məhz bunun nəticəsində ötən il Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı olub.

Dini ibadətgahların müasir standartlar əsasında təmir edilməsi, yeni məscidlərin tikilməsi, müqəddəs yerlərə ziyarətlərin təşkili və sair məsələlərin öz həllini yüksək səviyyədə tapdığı muxtar respublikamızda Ramazan ayının islami qaydalara uyğun şəkildə keçirilməsi təmin edilir. Bu ayda iftar süfrələrinin açılması, dindarların bir araya gətirilməsi müqəddəs ayinlərimizin təbliğində mühüm rol oynayır. Bu tədbirlərin paytaxt şəhərimiz Naxçıvanla yanaşı, muxtar respublikanın rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində də təşkili birliyin, xeyirxahlığın, İslam dininə böyük ehtiramın ifadəsi kimi diqqət çəkir.

Müqəddəs Ramazan ayını müsəlmanlar “on bir ayın sultanı” da adlandırırlar. Həmin ay müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. İslam dininə görə, oruc tutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Müqəddəs kitabımız “Qurani-Kərim”in nazil olunduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır”.***

Oruc Həzrəti Adəmdən (ə) bəri bütün peyğəmbərlərə və onların ümmətlərinə vacib buyurulmuş qədim ibadətdir. Məsələn, Həzrəti Nuh (ə) bayram günləri istisna olmaqla, bütün ilboyu, Həzrəti Davud (ə) isə günaşırı oruc tutarmış. Bu barədə “Qurani-Kərim”də *“Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!” (“əl-Bəqərə”, 183)* bildirilir.

Həzrəti Peyğəmbər (s.a.v) belə buyurmuşdur: *“Ramazan ayı gələndə cənnətin qapıları açılır”.*

Bu ibadət müsəlmanlara Uca Yaradan tərəfindən hicrətin ikinci ilində – şaban ayının on üçündə bəxş edilmişdir.

Ramazani-Şərif müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki müqəddəs “Qurani-Kərim” bu ayda nazil olmağa başlamış, Həzrəti Məhəmmədə (s.a.v) peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması “Qurani-Kərim”də də əksini tapmışdır: *“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar...” (əl-Bəqərə, 185).*

Oruc ibadətinin həm mənəvi, həm də sağlamlıq baxımından faydaları çoxdur. Bu ibadətin fəzilətlərindən biri insanlarda mərhəmət və xeyirxahlıq hisslərinin gücləndirməsidir. Belə ki, ömür boyu çətinliyin nə olduğunu bilməyən zənginlər kasıbların halını anlaya bilməzlər. Lakin həmin insanlar oruc tutarsa, aclığın nə olduğunu başa düşərək yoxsulların əziyyətlərini hiss edər və onların qəlblərində şəfqət duyğuları yaranar. Beləliklə də, imkansızlara kömək edərək onları sıxıntılardan qurtarmağa çalışarlar.

Orucluq, eləcə də insana nemətlərin qiymətini öyrədir. Oructutmada bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinir, həm də Allaha şükür etməyi öyrənir. Bu ayin həm də insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insanın orqanizmi orucluq vaxtı dincəldikdən sonra funksiyasını daha rahat yerinə yetirir.

Müasir tibb elmi də orucun faydalarını göstərmişdir. Fransız alimi, Nobel mükafatı qazanmış Aleksi Karel məsələ ilə bağlı fikrini belə bildirmişdir: “Orucluq müddətində orqanizmdə yığılmış qida maddələri işlənir, sonra isə onların yerinə yeniləri gəlir və vücudda təzələnmə baş verir. Bu və digər baxımdan oruc sağlamlıq üçün faydalıdır”.

Məsələ ilə bağlı Rəsulullah (s.a.v) da hədislərində buyurmuşdur: *“Oruc tutun ki, sağlam olasınız”.*

Həddi-büluğa çatmış, ağlı yerində olan hər müsəlmana oruc vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır. Kəffarə bir gün bilərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır. Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Ramazan ayı bəzən 29, bəzən də 30 gün olur. Ay 29 gün davam edəndə də orucluq tam hesab edilir. Ən əsası həmin ayı bütünlüklə oruclu keçirməkdir. Necə ki Rəsulullah (s.a.v) doqquz Ramazan orucu tutmuş, onların dördü 29, beşi isə 30 gün davam etmişdir.

*Oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrindən birini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da müəyyən fayda və hikmətləri vardır.*

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru***

# Beynəlxalq turnir öncəsi seminar




Bu gün Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş karate-do üzrə “Heydər Əliyev kuboku” uğrunda “Naxçıvan Open” Beynəlxalq turnirinə start veriləcək.

Dünən kompleksdə hakim və məşqçi-müəllimlər üçün texniki-taktiki seminar keçirilib. Azərbaycan Milli Karate Federasiyasının Hakimlər Kollegiyasının sədri Cahangir Babayev seminar iştirakçılarına uğurlar arzulayaraq yarışlarda və milli komandanın heyətinə üzvlərin seçilməsində hakimlərin işinin əhəmiyyətindən, həmçinin onların bilik səviyyələrinin artırılmasından, nəzərdə tutulan gələcək planlardan danışıb. Eyni zamanda qaydalardakı dəyişiklik və yeniliklər hakimlərin diqqətinə çatdırılıb.

Qeyd edək ki, seminarda respublikanın müxtəlif bölgələrindən olan hakimlər və məşqçilərlə yanaşı, turnirdə iştirak edəcək ölkələrin hakimləri də iştirak ediblər.

# Üçüncü tura yekun vurulub

*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində keçirilən “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının üçüncü turuna yekun vurulub.*



“A” qrupunun maraqla gözlənilən oyununda azərbaycanlı qrossmeyster Nicat Abasov (2633) özbəkistanlı beynəlxalq usta Ortik Niqmatovla (2469), azərbaycanlı qrossmeyster Eltac Səfərli (2624) isə azərbaycanlı beynəlxalq usta Məhəmməd Muradlı (2451) ilə üz-üzə gəlib. Bu görüşlərdə Səfərli qalib gəldiyi halda Abasov-Niqmatov cütlüyünün oyunu heçheçə başa çatıb. ABŞ-lı qrossmeyster Timur Qarayev (2560) türkiyəli FİDE ustası Esat Bağlanı (2345) məğlub edərək ardıcıl üçüncü qələbəsini bayram edib.

Belaruslu qrossmeyster Vadim Malaxatko (2508) və azərbaycanlı FİDE ustası Murad İbrahimlinin (2371) də görüşü maraqla gözlənilirdi. Bu qarşılaşmada gülən tərəf belaruslu şahmatçı olub. Turnirin ən yüksək reytinqli şahmatçısı, belaruslu qrossmeyster Vladislav Kovalyev (2678) bu turda azərbaycanlı beynəlxalq usta Misrətdin İsgəndərovun (2495) müqavimətini qıra bilməyib. Görüş “sülh”lə başa çatıb.

Belaruslu qrossmeyster Aleksey Aleksandrovla (2603) iranlı qrossmeyster Əmirreza Purramezanali (2496) xalları yarı böldüyü halda ukraynalı qrossmeyster Eldar Qasanov (2506) azərbaycanlı beynəlxalq usta Orxan Abdulovu (2372) məğlubiyyətə uğradıb.

Naxçıvanlı zəka sahiblərində qrossmeyster Urfan Sevdimalıyev (2352) azərbaycanlı qrossmeyster Zeynəb Məmmədyarovla (2280) üz-üzə gəlib və turnirdə ikinci qələbəsini qazanıb. FİDE ustalarımızdan Sadiq Məmmədov (2205) rusiyalı FİDE ustası Aleksandr Demyanjuka (2338), Pərviz Qasımov (2328) isə azərbaycanlı FİDE ustası Gövhər Beydullayevaya (2316) məğlub olub. Beynəlxalq ustalarımızdan Toğrul Həsənzadə (2323) azərbaycanlı şahmatçı Xəzər Babazadəyə (2284) şans tanımayıb. Digər beynəlxalq usta Talıb Babayev (2329) isə azərbaycanlı qrossmeyster Xəyalə Abdulla (2228) ilə xalları yarı bölüb.

İlk 3 turdan sonra Eltac Səfərli, Vadim Malaxatko və Timur Qarayev 3 xalla liderdirlər.

“B” qrupunda isə səkkiz zəka sahibi maksimum nəticə göstərib. Onlar arasında ilk üç pillədə Amil Abbasov (2215), Şahin Hüseynov (2189) və Fariz Əhmədov (2158) qərarlaşıblar.

Beynəlxalq Şahmat Festivalının “C” qrupunda 15 zəka sahibi yüksək nəticə göstərib. Onların 9 nəfəri Naxçıvan şahmat məktəbinin yetirməsidir.

**✍ C.MƏMMƏDOV**

# Tanınmış şahmatçılarla mübarizə aparmaq qürurvericidir

***Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalında artıq 3 tur geridə qalıb. Festivalda iştirak edən zəka sahiblərinin fikirlərini öyrəndik.***



***Timur Qarayev – ABŞ-lı qrossmeyster:*** – Bu, mənim Naxçıvana ilk səfərimdir. Açığı, turnir barədə məlumatlı idim, sadəcə, bəzi məsələlərə görə indiyə kimi iştirak etməmişəm. Ümumiyyətlə, Azərbaycan mənə çox doğmadır, burada mənim dostlarım yaşayır. Amerikada yaşamağıma baxmayaraq, Özbəkistanda doğulub böyümüşəm və şahmatı da məhz orada öyrənmişəm. İlk dəfə olaraq babam mənə 6 yaşımda şahmatın sirlərini öyrətməyə başladı. Atam isə təfəkkür və oyun vərdişinin sevinci, hansı mövqedə necə oynamağı öyrətdi. Deyə bilərəm ki, mənim ilk müəllimlərim onlardır. Atamın və babamın mənə öyrətdiyi ən vacib şey oyunu necə sevməyimdir. Böyüdükcə şahmatın sirli, gözəl bir mühitinə sahib oldum. Şahmat mənim bir zövqdür, burada mən bütün problemlərə meydan oxuyuram.

Beynəlxalq Şahmat Festivalına gəlincə, təşkilatçılıq baxımından yalnız bir söz deyə bilərəm – möhtəşəmdir. Burada dünyanın bir çox tanınmış şahmatçıları mübarizə aparır və onlarla eyni turnirdə oynamaq mənim üçün qürurvericidir. Naxçıvan şəhəri isə öz gözəlliyi və sakitliyi ilə məni valeh etdi. Eyni zamanda mədəniyyətlərimiz bir-birinə çox oxşayır. Deyə bilərəm ki, insanların isti münasibəti, qonaqpərvərliyi və davranışını gördükcə, özümü ölkəmdə hiss edirəm. Digər tərəfdən, hər hansı bir ölkənin dilini öyrənməyi çox sevirəm. Son bir neçə il ərzində bütün səyahətlərimdə həmişə yerli əhali ilə danışmaq üçün səy göstərirəm. Elə Naxçıvanda da bunu edirəm. İnanıram ki, uğurlu başladığım festivalı elə uğurlu nəticə ilə də başa vuracağam.

***Türkan Məmmədyarova – azərbaycanlı qrossmeyster:*** – Naxçıvan mənim üçün doğma bir diyardır. Artıq 9-cu dəfədir ki, Beynəlxalq Şahmat Festivalında çıxış edirəm. İlk dəfə 2011-ci ildə keçirilən festivalda qadınlar arasında qalib adını qazanmışam. Turnirdə iştirak edənlərin sayı hər il artdıqca, rəqabət də yüksək olur. Cari turnirə heç də yaxşı başlamamışam. Buna baxmayaraq, sonadək mübarizə aparacağam. Bura hər dəfə gəldikdə özümü daha rahat hiss edirəm. Çünki Naxçıvan insanların səmimiliyini, şəhərin gözəl, təmiz və sakit olmasını sevirəm. Təşkilatçılığa gəlincə, hər şey mükəmməl hazırlanıb və şahmatçıların rahatlığı üçün hər bir şərait yaradılıb. Fürsətdən istifadə edib təşkilatçılara minnətdarlığımı bildirirəm.



**✍ Ceyhun MƏMMƏDOV**


***İtmişdir***

Nəcəfli Vasif Ənvər oğlunun adına olan 06592 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Cəhri kənd sakini Seyidov Mirrza Mirəşrəf oğlunun adına 21.06.2016-cı il tarixdə verilmiş A-014150 seriya nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu,Vayxır kənd sakini İsmayılov Şəmsəddin Oruc oğluna məxsus JN-133A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

***Ünvan:*** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-81-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Mətanət Məmmədova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 312**